Hikmət QULİYEV
Filologiya elmləri doktoru
AMEA Folklor İnstitutu
E-mail: hikmet.guliyev85@gmail.com
ORCID ID: 0000-0002-9166-5627
https://doi.org/10.59849/2309-7949.2026.3.64

"KOBLANDI BATIR" DASTANINDA EPİK QƏHRƏMANIN İNİSİASİYA MODELİ: METAFORİK-SİMVOLİK ANALİZ

Açar sözlər: Koblandı batır; epik qəhrəman; inisiasiya modeli; metaforik-simvolik analiz; struktur-semantik analiz; liminallıq; simvolik ölüm; yenidən doğuluş; qəhrəmanlıq statusu.

МОДЕЛЬ ИНИЦИАЦИИ ЭПИЧЕСКОГО ГЕРОЯ В ЭПОСЕ «КОБЛАНДЫ БАТЫР»: МЕТАФОРИКО-СИМВОЛИЧЕСКИЙ АНАЛИЗ

АННОТАЦИЯ

В статье на основе метафорико-символического и структурно-семантического подходов исследуется модель инициации эпического героя в казахском героическом эпосе «Кобланды батыр». Цель исследования заключается в выявлении этапов, определяющих формирование героического статуса Кобланды и его повторное утверждение в различных сюжетных ситуациях, а также в раскрытии инициационной семантики образов, пространств, предметов и действий, участвующих в этих процессах. Эпизоды рождения героя, выхода из детского возраста, обучения под руководством Естемиса, приобретения навыков охоты и стрельбы из лука, союза с Курткой, выбора Тайбурыла, противостояния с ханом Казаном, пленения, освобождения и возвращения в родные края рассматриваются как различные этапы инициационной структуры.

Теоретико-методологическую основу исследования составляют теория обрядов перехода, концепция лиминальности и подходы к изучению модели эпического героя. В работе применяются методы метафорико-символического, структурно-семантического и сравнительного анализа. Основная научная новизна исследования заключается в том, что инициация в эпосе «Кобланды батыр» определяется не как эпическое изображение конкретного ритуала, а как метафорико-символическая модель, организующая статусные переходы героя посредством семантики рождения, отделения, испытания, символической смерти и возрождения. Особое внимание уделяется драматическим сценам прощания Кобланды с отцом, матерью и сестрой перед походом против хана Казана, а также эпизоду «припадания к материнской груди», который в метафорическом контексте символизирует возвращение к семантическому истоку первоначального рождения и подготовку к предстоящему испытанию. Пленение выступает не как физическая гибель героя, а как этап «символической смерти», в течение которого его героическая функция временно приостанавливается. Освобождение и возвращение в родные края, в свою очередь, знаменуют завершение данного этапа и повторное утверждение героического статуса.

В исследовании охота, стрельба из лука, конь, оружие и другие эпические атрибуты рассматриваются как метафорические знаки перехода героя от детства к юности, а затем от юности к статусу батыра. Анализ сюжетной модели в эпической биографии его сына Бокенбая, перекликающейся с биографией Кобланды, позволяет утверждать, что героическая модель представляет собой повторяющуюся структуру в эпосе.

Таким образом, героический статус в эпосе «Кобланды батыр» представлен не как изначально заданная и неизменная характеристика, а как динамическая модель героизма, формирующаяся начиная с рождения и проходящая через этапы отделения, испытания, символической смерти и возрождения.

Ключевые слова: Кобланды батыр, эпический герой, модель инициации, метафорико-символический анализ, структурно-семантический анализ, лиминальность, символическая смерть, возрождение,а героический статус.

THE INITIATION MODEL OF THE EPIC HERO IN THE EPIC "KOBLANDY BATYR": A METAPHORICAL-SYMBOLIC ANALYSIS

ABSTRACT

In the article Kazakh heroic epic "Koblandy batyr" the model of initiation of the epic hero is studied on the basis of metaphorical-symbolic and structural-semantic approaches. The aim of the study is to identify the stages that determine the formation of Koblandy's heroic status and its reconstruction across various narrative situations and to reveal the initiation semantics of the characters, settings, objects and actions involved in these stages. Episodes such as the hero's birth, his departure from childhood, his training under Estemis, his acquisition of hunting and archery skills, the obtaining of Kurtka, the selection of Tayburyl, the confrontation with Gazan Khan, captivity, liberation and the return to his homeland are analyzed as various stages of an initiation structure.

The research is based on approaches concerning the theory of rites of passage, the concept of liminality and the hero model; metaphorical-symbolic, structural-semantic and comparative analysis methods are used. The primary scientific novelty of the study lies in the fact that, in the epic "Koblandy Batyr", initiation is defined not as an epic depiction of a specific ritual, but as an epic structure that organizes the hero's status transitions through the semantics of birth, separation, ordeal, symbolic death and rebirth. In particular, the act of Koblandy nursing from his mother's breast before the campaign against Kazan Khan signifies a return to the semantic source of his birth and a preparation for the impending trial.

Captivity, however, does not represent the physical destruction of the hero; rather, it serves as a stage of "symbolic death" during which the heroic function is temporarily suspended, while freedom and the return to one's homeland signify the conclusion of this stage and the reaffirmation of heroic status.

In the study hunting, archery, horses, weapons and other epic attributes encode the hero's transition from childhood to adulthood and heroic status are demonstrated. that. The definition of the plot model in Bokenbay's biography, which is structurally consonant with Koblandy, shows that the initiation structure is a recurring feature in the heroic model of the epic. Thus, in the epic "Koblandy Batyr", initiation signifies not a static status of the hero, but a dynamic model of heroism shaped by stages beginning at birth of separation, ordeal, symbolic death and rebirth.

Keywords: Koblandy Batyr; epic hero; initiation model; metaphorical-symbolic analysis; structural-semantic analysis; liminality; symbolic death; rebirth; heroic status.

I. Giriş: problemin ümumi mənzərəsi. "Koblandı batır" qazax qəhrəmanlıq eposunun strukturunda qəhrəmanın şücaəti və döyüş zəfərləri yalnız epik hadisələrin nəticəsi kimi deyil, onun qəhrəmanlıq statusunun formalaşması və təsdiqlənməsi prosesinin ayrı-ayrı mərhələləri kimi meydana çıxır. Dastanın epik təhkiyəsi Koblandını əvvəldən bütün keyfiyyətləri tamamlanmış qəhrəman kimi təqdim etmir. Əksinə, onun qəhrəmanlıq statusu doğuluşdan başlayaraq müxtəlif keçidlər, sınaqlar, qarşılaşmalar, itkilər və qələbələr vasitəsilə tədricən formalaşır. Bu baxımdan dastanın süjetində qəhrəmanın doğuluşu, ilkin mühitdə yetişməsi, xüsusi hazırlıq mərhələsindən keçməsi, ilk sınaqlarda özünü təsdiqləməsi, evlənməsi, Tayburıl kimi qeyri-adi döyüş atına yiyələnməsi, yad məkana daxil olması, ağır məğlubiyyət və əsirlik təcrübəsi, əsirlikdən çıxaraq yenidən silahlanması və doğma el-obaya qayıtması vahid epik məntiq daxilində bir-biri ilə əlaqələnir.

Bu ardıcıllıq qəhrəmanlıq hadisələrinin sadəcə xronoloji düzülüşü deyil. Burada hər bir sınaq Koblandının əvvəlki statusunu "sınağa çəkməklə" onun daha yüksək səviyyədə təsdiqlənməsini şərtləndirir. Başqa sözlə, "batır" olmaq dastanda birdəfəlik qazanılan və dəyişməz keyfiyyət deyil, qəhrəmanın müxtəlif kri-

tik vəziyyətlərdən keçməsi ilə yenidən təsdiqlənən epik statusdur. Koblandının uşaqlıqdan müxtəlif sınaqlardan keçməsi, Estemisin yanında yetişməsi, ilk qəhrəmanlıq aktını gerçəkləşdirməsi və Kürtka ilə evlənməsi onun qəhrəman bioqrafiyasının ilkin mərhələsini təşkil edirsə, yadellilərlə döyüşlərdə qazandığı qələbələr bu statusu artıq tayfa və el mənafeyi ilə əlaqələndirir. Əsirlik isə həmin statusun böhran mərhələsidir: qəhrəman müvəqqəti olaraq azadlığından, silahından, döyüş imkanından və Tayburıldan məhrum edilir. Lakin bu məhrumiyyət epik məğlubiyyətlə yekunlaşmır. Qəhrəman "simvolik ölüm" mərhələsindən keçərək sanki yenidən "doğulur".

Dastanın strukturunda xüsusilə diqqət çəkən cəhət qəhrəmanın "keçid" təcrübələrinin onun statusundakı dəyişmə ilə paralel şəkildə qurulmasıdır. Koblandı bir mərhələdən digərinə keçdikcə yalnız yeni hadisənin iştirakçısına çevrilmir, həm də əvvəlki mövqeyindən fərqlənən yeni epik funksional status qazanır. Uşaqlıqdan igidliyə, gənc döyüşçüdən elin müdafiəçisinə, məğlub və əsir vəziyyətindən yenidən qalib qəhrəmana doğru hərəkət edən bu epik bioqrafiya qəhrəmanlığın hazır və sabit vəziyyət deyil, sınaq və keçidlər vasitəsilə formalaşan proses olduğunu göstərir.

Bu baxımdan "Koblandı batır" dastanında müşahidə olunan süjet ardıcıllığını, şərti olaraq inisiasiya modeli kontekstində nəzərdən keçirmək mümkündür. Burada inisiasiya modeli dedikdə yalnız müəyyən mərasim və ya etnoqrafik praktikaya aid edilən dar mənalı anlayış deyil, qəhrəmanın bir statusdan digərinə keçidini, bu keçid zamanı sınaqlardan keçməsini və əldə etdiyi yeni statusun epik mətn daxilində təsdiqlənməsini izah edən struktur-semantik model nəzərdə tutulur. Ayrılma, keçid və yenidən qayıdış məntiqi dastanın müxtəlif süjet hissələrində fərqli formalarda təzahür edir və qəhrəmanın epik bioqrafiyasının daxili təşkil prinsipinə çevrilir.

Beləliklə, "Koblandı batır" dastanında qəhrəmanın inisiasiya modelinin araşdırılması onun yalnız necə döyüşdüyünü və qalib gəldiyini deyil, necə qəhrəmana çevrildiyini, qəhrəmanlıq statusunun hansı sınaqlardan keçərək təsdiqləndiyini və bu statusun fərdi keyfiyyətdən kollektiv məna daşıyan epik funksiyaya necə çevrildiyini anlamağa imkan verir. Bu model dastanın qəhrəmanlıq süjetinin daxili strukturunu və Koblandının epik obrazının formalaşma mexanizmlərini daha sistemli şəkildə izah edən analitik çərçivə kimi çıxış edir.

II. Epik qəhrəmanın inisiasiya modelinin nəzəri-metodoloji çərçivəsi. Epik qəhrəmanın inisiasiya modelinin müəyyənləşdirilməsi ilk növbədə qəhrəman obrazının yalnız fərdi xüsusiyyətlər sistemi kimi deyil, onun statusunun formalaşmasını və dəyişməsini təşkil edən struktur hadisə kimi nəzərdən keçirilməsini tələb edir. Dünya folklorşünaslığında qəhrəmanın doğuluşu, uşaqlıq və gənclik dövrü, ilkin sınaqları, səfəri, təhlükə və məhrumiyyətlərlə qarşılaşması, mübarizəsi və qayıdışı ilə bağlı süjetlərin müqayisəli analizi müxtəlif nəzəri modellərin meydana çıxmasına səbəb olmuşdur. Bu modellər arasında Arnold van Gennepin *keçid mərasimləri* nəzəriyyəsi, Victor Turnerin *liminallıq konsepsiyası*, Otto Rankın *qəhrəmanın doğuluşu* haqqında psixoanalitik modeli və Lord Raglanın *qəhrəman sxemi* xüsusi yer tutur. Alan Dundes isə həmin ənənəni folklorşünaslıq müstəvisində yenidən nəzərdən keçirərək qəhrəman modelinin müqayisəli tətbiqinin imkanları və məhdudiyyətləri məsələsini aktuallaşdırmışdır.

Şübhəsiz ki, inisiasiya modelinin nəzəri əsasını müəyyənləşdirən mühüm başlanğıc nöqtələrindən biri Arnold van Gennepin "Les rites de passage" əsərində irəli sürdüyü "keçid mərasimləri" konsepsiyasıdır. Van Gennep insan həyatını *doğuluş, sosial yetkinlik, evlilik, atalıq, sosial statusun yüksəlməsi və ölüm* kimi bir-birini izləyən keçidlər sistemi kimi nəzərdən keçirir və bu keçidlərin müxtəlif mərasim formalarında struktur baxımından oxşar məntiqə tabe olduğunu göstərir. Onun fikrincə, fərdin müəyyən bir sosial vəziyyətdən digərinə keçidi üç əsas mərhələdən ibarət ola bilər: ***ayrılma (separation), keçid və ya liminal mərhələ (transition) və birləşmə/qəbul (incorporation)***. Van Gennep bu üç mərhələni **preliminal, liminal və postliminal** mərhələlər kimi də fərqləndirir (Gennep 1960: 3, 10-11).

Göründüyü kimi, Van Gennepin modeli baxımından əsas məsələ mərasimin özündən daha çox status dəyişikliyinin strukturudur. Fərd əvvəlki sosial vəziyyətindən ayrılır, aralıq mövqedə dayanır və nəticədə yeni sosial vəziyyətə daxil olur. Şübhəsiz ki, bu nəzəri sxemin folklor mətnlərinə tətbiqi konkret ritualın təsviri kimi deyil, süjetdə status dəyişməsini təşkil edən struktur prinsip kimi daha məqsədəuyğundur. "Koblandı batır" dastanında da qəhrəmanın uşaqlıq mərhələsindən igidlik statusuna, ana mühitindən ata mühitinə, ərgənlik və yaxud fallik metaforalara müşayiət olunan kişilik-qəhrəmanlıq-batırlıq statusuna, fərdi sınaqlardan kollektiv müdafiə funksiyasına, əsirlikdən yenidən qəhrəmanlıq statusuna keçidi bu üçpilləli məntiq baxımından təhlil edilə bilər. Təbii ki, burada söhbət dastanda mütləq şəkildə real inisiasiya mərasiminin mövcudluğundan deyil, epik təhkiyənin status keçidlərini inisiasiya məntiqində təşkil etməsindən gedir.

Hesab edirik ki, "Koblandı batır" dastanında epik qəhrəmanın inisiasiyası problemini analiz edərkən Van Gennepin konsepsiyası ilə Victor Turnerin liminallıq anlayışı bir-birini tamamlayan metodoloji imkanlar yaradır. Turnerə görə, keçid prosesinin mərkəzində subyektin əvvəlki statusundan ayrıldığı, lakin hələ yeni statusuna tam daxil olmadığı aralıq vəziyyət dayanır. Liminal subyekt "nə burada, nə də orada" olan, əvvəlki sosial təsnifatların çərçivəsindən çıxmış və yeni statusun hələ tam müəyyənləşmədiyi vəziyyətdədir (Turner, 1969: 95). Turner bu mərhələnin qeyri-müəyyənlik və statuslararası vəziyyət yaratdığını, keçidin tamamlanması ilə subyektin yenidən sosial struktura daxil olaraq yeni status qazandığını vurğulayır.

Şübhəsiz ki, Turnerin liminallıq konsepsiyası "Koblandı batır" dastanının xüsusilə əsirlik və qəhrəmanın yenidən döyüşə qayıtması kimi hissələrinin izahı üçün metodoloji imkan yaradır. Çünki əsirlik mərhələsində Koblandı əvvəlki döyüşçü statusunun əsas atributlarından – azadlıqdan, silahdan, döyüş fəaliyyətindən və Tayburıldan məhrum edilir. Beləliklə, o, əvvəlki fəaliyyət imkanlarını itirmiş, lakin hələ yeni vəziyyətə daxil olmamış liminal mövqeyə keçir. Karlığanın müdaxiləsi, Tayburılın geri qaytarılması, silahlanma və yenidən döyüşə qoşulma isə bu keçidin tamamlanmasını və qəhrəmanlıq statusunun yeni səviyyədə bərpasını təmin edir. Burada liminallığa yalnız "aralıq vəziyyət" kimi deyil, qəhrəmanın epik statusunun sınaqdan keçirildiyi mərhələ kimi baxmaq mümkündür.

Epik qəhrəmanın strukturunu birbaşa qəhrəman bioqrafiyasının süjet sxemi ilə əlaqələndirən klassik yanaşmalardan biri isə Otto Rankın *"The Myth of the Birth of the Hero"* əsərində irəli sürdüyü modeldir. Rank müxtəlif xalqların qəhrəman haqqında mif və rəvayətlərində doğuluş və erkən həyatla bağlı bir sıra tək-

rarlanan motivlərin mövcudluğuna diqqət çəkir. Onun müqayisə etdiyi materiallarda qəhrəmanın qeyri-adi doğuluşu, valideynlərdən ayrılması, təhlükəyə məruz qalması, başqa mühitdə böyüməsi, sonradan tanınması və valideynlərlə münasibətinin yenidən qurulması kimi motivlər diqqəti cəlb edir (Ranki, 1914: 66).

Rankın yanaşmasının əhəmiyyəti onun qəhrəmanın doğuluşunu sadəcə genealoji başlanğıc kimi deyil, qəhrəmanlıq bioqrafiyasının ilk struktur düyünü kimi nəzərdən keçirməsindədir. Düşünürük ki, Rankın modeli Koblandının doğuluşu və bu doğuluşu müşayiət edən elementlərin onun sonrakı qəhrəmanlıq statusunun formalaşmasındakı rolunu izah etmək üçün əhəmiyyətlidir. Yaşlı və övladsız Toktarbayın övlad arzusu, Koblandının möcüzəli doğuluşu, uşaqlıqdan başqalarından fərqlənməsi və Estemisin yanında yetişməsi dastanda qəhrəmanlıq bioqrafiyasının ilkin keçid mərhələlərini təşkil edir.

Lord Raglan isə qəhrəman haqqında ənənəvi süjetlərin müqayisəli təhlilini daha sistemli şəkildə ümumiləşdirərək 22 epizoddan ibarət *"qəhrəman sxemi"* irəli sürmüşdür (Raglan, 936: 175). Bu sxemdə qeyri-adi doğuluş, təhlükə, qəhrəmanın başqa yerdə böyüməsi, yetkinlik dövründə geri qayıtması, düşmən və ya hökmdarla mübarizə, evlilik, hakimiyyət əldə etməsi və sonda ölüm kimi motivlər ardıcıl şəkildə təqdim olunur. Hesab edirik ki, Raglanın qəhrəman modeli "Koblandı batır" dastanının müxtəlif epizodları arasında tipoloji uyğunluqları görmək baxımından faydalı olsa da, onu dastanın bütün süjetini izah edən universal formul kimi tətbiq etmək özünü doğrultmur. Məsələn, Koblandının doğuluşu, uşaqlığı, ilk sınaqları, evlənməsi, yad məkana səfəri, düşmənlərlə mübarizəsi və qayıdışı müəyyən qəhrəmanlıq modelləri ilə səsləşsə də, dastanın spesifikliyi ayrı-ayrı motivlərin yalnız mövcudluğu ilə deyil, onların epik sistem daxilində hansı funksiyanı yerinə yetirməsi ilə müəyyənləşir.

Bu məqam Alan Dundesin qəhrəman modeli ilə bağlı yanaşmasını nəzəri-metodoloji baxımdan xüsusilə əhəmiyyətli edir. Çünki Dundes Rank və Raglanın qəhrəman modellərini müqayisə kontekstində nəzərdən keçirərək "hero pattern"in müxtəlif ənənələrdə təzahürünü konkret mətnlərin struktur xüsusiyyətləri ilə əlaqələndirir (Dundes, 2005: 179–228). Dundes üçün mühüm məsələlərdən biri qəhrəman sxeminin ayrı-ayrı motivlərin mexaniki cəmi kimi deyil, təkrarlanan narrativ model kimi araşdırılmasıdır. Eyni zamanda o, Raglanın sxeminin özünün müəyyən dərəcədə şərti xarakter daşıdığını nəzərə alır və qəhrəman modelinin konkret mətnə tətbiqində müqayisəli uyğunluqla struktur funksiyanı bir-birindən fərqləndirməyə imkan verir. Beləliklə, "Koblandı batır" dastanının təhlilində sözügedən nəzəri yanaşmaların hər birindən eyni məqsədlə deyil, müxtəlif analitik səviyyələrdə istifadə etmək mümkündür. Belə ki, Van Gennepin üçpilləli keçid modeli qəhrəmanın status dəyişməsinin ümumi strukturunu, Turnerin liminallıq konsepsiyası keçid və böhran mərhələsinin daxili məntiqini, Rankın modeli qəhrəmanın doğuluşu və erkən bioqrafiyasının arxetipik strukturunu, Raqlanın sxemi qəhrəman bioqrafiyasında təkrarlanan epik motivlərin tipoloji qarşılıqlarını, Dundesin yanaşması isə bu modellərin folklor mətninə tətbiqində müqayisəli-narrativ strukturun nəzərə alınmasını təmin edir.

Bu nəzəri-metodoloji çərçivə əsasında "Koblandı batır" dastanında inisiasiya ayrılma – keçid/sınaq – yenidən status qazanma və epik tanınma ardıcıllığı kimi nəzərdən keçirə bilərik. Lakin bu ardıcıllıq dastanda yalnız bir dəfə baş verən

xətti proses deyil. Koblandının qəhrəmanlıq statusu müxtəlif süjet mərhələlərində yenidən sınağa çəkilir və hər dəfə əvvəlkindən daha geniş məna qazanır. Buna görə də tədqiqatın əsas məqsədi dastanı hazır qəhrəman haqqında hadisələr silsiləsi kimi deyil, qəhrəmanlıq statusunun sınaqlar və keçidlər vasitəsilə formalaşdığı, böhranlarda yenidən yoxlandığı və qayıdışlarla təsdiqləndiyi epik struktur kimi təhlil etməkdir. Odur ki, bu baxış "Koblandı batır" dastanında qəhrəmanın inisiasiya modelinin müəyyənləşdirilməsi üçün əsas metodoloji istiqaməti təşkil edir. Burada inisiasiya xətti bir dəfə tamamlanan mərhələlər silsiləsi deyil, əksinə, qəhrəmanlıq statusunun müxtəlif süjet situasiyalarında yenidən qurulduğu təkrarlanan, genişlənən və hər yeni sınaqda başqa səviyyədə təsdiqlənən epik modeldir.

1. Toktarbayın övladsızlığı və Koblandının doğuluşu: övladsızlıq və möcüzəli doğuluş mərhələsi. "Koblandı batır" dastanı övladsızlıq motivi ilə başlayır. Dastanda təsvir olunur ki, çox keçmiş zamanlarda Qaraqıpçaq elində böyük var-dövlət sahibi Toktarbay yaşayırdı. Onun yaylağı Közdi gölü, qışlağı Karaspan dağı idi, ilxıları, sürüləri və nökərləri çox idi. El içində nüfuzlu bəy sayılmasına baxmayaraq, həyatının ən böyük dərdi varis sahibi olmaması idi. Səksən yaşına çatanadək övlad görməyən Toktarbay nəsilsiz qalmaq qorxusu yaşayır, özünü "qanadsız qartal"a bənzədirdi. Dastanda təsvir olunur ki, "Qalın Qıpçaq" da onun bu halına yanırdı (Qaybalıyeva, 2025: 40). Burada "qanadsız qartal" metaforası Toktarbayın övladsızlığını yalnız fərdi həyatın natamamlığı kimi deyil, onun soyunun və statusunun davamlılığı ilə bağlı problem kimi işarələyir. Eyni zamanda bu detal Koblandının hələ doğulmazdan əvvəl fərdi ailə çərçivəsini aşan epik gözləntinin obyekti kimi qurulduğunu göstərir.

Toktarbay çarəni müqəddəs yerlərə və pirlərə üz tutmaqda görür. O, yeddi pirə baş çəkir, övliyalara və Xorasana qoç qurban deyir. Nəhayət, diləyinin qəbul olunduğu bildirilir və arvadı Analıq hamilə qalır. Analıq artıq əlli yaşına çatmışdı. O, bir oğul və bir qız dünyaya gətirir. Oğlan Koblandı, qız isə Karlığaş adlandırılır. Beləliklə, Koblandının doğuluşu yalnız Toktarbay və Analığın şəxsi sevincinin nəticəsi kimi deyil, "Qalın Qıpçaq"ın gözləntisinin də gerçəkləşməsi kimi təqdim olunur (Qaybalıyeva, 2025: 39–40). Bu baxımdan doğuluş motivi qəhrəmanın sonrakı statusunun başlanğıcını təşkil edən mühüm epik düyünə çevrilir.

Qəhrəmanın bu şəkildə doğuluşu Azərbaycan epik təfəkkürü üçün də xarakterikdir. Məsələn, "Kitabi-Dədə Qorqud" eposunda Dirsə xanın oğlu Buğac (Əlizadə, 2004: 26–27), "Qurbani" dastanında Qurbani məhz nəzir-niyazdan sonra doğulur (Təhmasib, 2005: 39). Azərbaycan nağıllarında da övladsızlıq motivinin möcüzəli və ya sakral-semantik doğuluşla həll edilməsi geniş yayılmış süjet modellərindən biridir. Bu baxımdan övladsızlıqla başlayan süjetin möcüzəli doğuluşla davam etməsi qəhrəmanın adi doğuluşdan fərqli şəkildə işarələnməsini təmin edir. Lakin burada mühüm məqam ondan ibarətdir ki, doğuluşun qeyri-adiliyi qəhrəmanlıq statusunun artıq tamamlandığı anlamına gəlmir. Əksinə, Koblandının seçilmiş doğuluşu onun gələcək qəhrəmanlıq bioqrafiyasının epik əsasını yaradır və bu status sonrakı sınaqlarda tədricən reallaşır.

Diqqət çəkən digər məqam odur ki, həm övladsızlıq dövründə, həm də Koblandının dünyaya gəlməsindən sonra hadisələr "Qalın Qıpçaq"ın münasibəti ilə əlaqələndirilir. Yəni dünyaya gələcək qəhrəman yalnız ailənin deyil, elin-obanın gözlədiyi oğul kimi təqdim edilir. Bu xüsusiyyət Koblandının doğuluşunu fərdi

bioqrafiyanın başlanğıcından daha geniş epik məna müstəvisinə keçirir. Qəhrəmanın doğuluşu burada gələcəkdə yerinə yetirəcəyi funksiyanın ilkin semantik işarəsinə çevrilir: onun fərdi varlığı ilə kollektivin gözləntisi arasında hələ doğuluş mərhələsindən etibarən əlaqə yaradılır.

Otto Rankın qəhrəmanın doğuluşu modeli baxımından bu epizodun diqqət çəkən cəhəti "seçilmiş doğuluş" motividir. Dastanda doğuluş motivinin funksiyası yalnız qəhrəmanın qeyri-adi mənşəyini göstərməklə məhdudlaşmır. Sonrakı məqamlarda bu motiv yenidən xatırlanır: Kürtka vida səhnəsində Koblandını "Allahdan dilədikləri oğul" adlandırır, ana Analıq isə onu qoca yaşında tapdığı, qızıl beşikdə böyütdüyü tək oğul kimi xatırlayır. Beləcə, doğuluş motivi başlanğıc epizod kimi qapanıb qalmır, kritik keçid məqamlarında qəhrəmanın kimliyini və seçilmişliyini yenidən təsdiqləyən epik yaddaş formuluna çevrilir.

Bu baxımdan həmin mərhələni iki əsas əlamətlə xarakterizə etmək mümkündür. *Birincisi,* övladsızlıq fərdi çatışmazlıq səviyyəsindən çıxaraq kollektiv gözləntiyə çevrilir: Toktarbayın varissizlik problemi "Qalın Qıpçaq"ın da gözləntisi kimi təqdim olunur. *İkincisi,* Koblandının doğuluşu yeddi pirə baş çəkmək, övliyaları ziyarət etmək və Xorasana qurban deməklə müşayiət olunan sakral-semantik çərçivədə təqdim edilir və qəhrəmanın sonrakı epik statusunun ilkin işarəsini yaradır. Şübhəsiz ki, burada əsas məsələ real inisiasiya mərasiminin mövcudluğunu axtarmaq deyil, dastanın qəhrəmanın doğuluşunu onun sonrakı seçilmişliyini və qəhrəmanlıq statusunu hazırlayan semantik başlanğıc kimi qurmasıdır.

Beləliklə, Koblandının qəhrəmanlıq bioqrafiyası doğuluş anında tamamlanmır. Onun seçilmiş doğuluşu gələcək statusun yalnız ilkin işarəsidir. Bu statusun gerçəkləşməsi üçün qəhrəman uşaqlıq mərhələsindən ayrılmalı, müəyyən hazırlıqdan keçməli və öz qabiliyyətlərini sınaqdan keçirməlidir. Deməli, doğuluşdan sonrakı mərhələ artıq qəhrəmanlıq potensialının formalaşdırılması mərhələsidir və bu keçid Koblandının uşaqlıqdan ayrılması, ovçuluq və döyüş bacarıqlarına yiyələnməsi, eləcə də Estemisin yanında yetişməsi ilə davam edir.

2. Evdən ayrılma, uşaqlıqdan ərgənliyə keçid və sürətli böyümə: epik qəhrəman bioqrafiyasının formalaşması. Ənənəvi dastan qəhrəmanlarının bioqrafiyasında olduğu kimi, Koblandı da çox sürətlə böyüyür. Altı yaşına çatanda artıq at minir, qırğı quşu və tazı ilə ova çıxır, digər uşaqlardan tamamilə fərqlənir. Qəhrəmanın erkən yaşlarından qeyri-adi davranışlar nümayiş etdirməsi onun xüsusi və seçilmiş biri olduğunu əsaslandıran epik təsvirlər sırasındadır. Eyni zamanda at minmək və ova çıxmaq kimi hərəkətlər dastanın kişi qəhrəmanının ərgənləşməsini və uşaqlıq mərhələsindən ayrılmasını işarələyən metaforik-semantik vasitələr kimi çıxış edir. Qəhrəmanın "şir doğulan Koblandı" (Qaybalıyeva 2025: 40) kimi təqdim olunması bir tərəfdən onun qeyri-adi doğuluşuna işarə edirsə, digər tərəfdən "şir" epiteti onun gələcək qəhrəmanlıq trayektoriyasını əvvəlcədən işarələyən epik semantikaya malikdir.

Epik qəhrəman olaraq Koblandının təqdimatında möcüzəli doğuluş və sürətli böyümə bir-birini tamamlayır. Lakin onun qəhrəmanlıq statusunun formalaşması yalnız fövqəladə doğuluşla məhdudlaşmır. Belə ki, qəhrəman müəyyən təcrübə və bacarıqlar qazanmalı, öz imkanlarını genişləndirməli və sonrakı sınaqlara hazırlaşmalıdır. Bu baxımdan dastanda Koblandının Estemislə qarşılaşması mühüm süjet mərhələsi kimi diqqəti cəlb edir. Azərbaycan məhəbbət və qəhrəmanlıq das-

tanlarında qəhrəmanın yetişdirilməsində "lələ" obrazının oynadığı funksiyaya bənzər şəkildə burada da həmin hazırlıq və yolgöstərmə missiyasını Toktarbayın ilxısında işləyən doxsan nökərin başçısı, təcrübəli igid Estemis yerinə yetirir.

Estemis dastanda yalnız qəhrəmana yol göstərən obraz kimi deyil, həm də qəhrəmanlıq biliyinin və fəaliyyət modellərinin bir mərhələdən digərinə ötürülməsini təmin edən epik mediator kimi çıxış edir. Bu yanaşma şifahi eposu sadəcə motiv və epizodlar məcmusu kimi deyil, mənalarının ənənəvi poetikanın daha geniş kontekstində formalaşdığı struktur kimi nəzərdən keçirməklə uzlaşır (Foley, 1991: 1–16).

Epik ənənədə qəhrəmana yol göstərən bu tipli obrazlar təcrübə, müdriklik və istiqamətləndirmə funksiyalarını özündə birləşdirir (Quliyev, 2016: 91). Onların iştirakı qəhrəmanın özündə olan potensialın epik fəaliyyətə çevrilməsini təmin edir. Bu baxımdan Estemis yalnız Koblandının yanında olan təcrübəli igid deyil, onun qəhrəmanlıq bacarıqlarının formalaşmasını təmin edən vasitəçi fiqurdur. Qəhrəmanın ailə mühitindən kənarda belə bir fiqurun yanında yetişməsi onun uşaqlıq statusundan ayrılmasının və yeni təcrübə mühitinə daxil olmasının mühüm göstəricisidir.

Düşünürük ki, qəhrəmana yol göstərən bu tipli obrazlar metaforik olaraq ata gücünün ifadəsidir. Çünki yetişən gənc qəhrəman adətən idarəolunmaz güc və enerjini özündə ehtiva etdiyindən ən birinci üz-üzə gəldiyi şəxs atası olur. Ata ilə qarşıdurma zərurəti lələ obrazlarını, konkret olaraq, Estemis tipli xarakterləri ortaya çıxarmışdır. Əslində, süjet planında Estemis tipli obrazlar ata-oğul konflitinin epik planda "həlli"ni təmin edir.

Koblandı ilxıya gələrək Estemislə tanış olur və ondan igidlik öyrənir. Bu mühitdə ov edir, ceyran qovur, düşmənlə qarşılaşanda döyüşür, atlı həyatın qaydalarını mənimsəyir. Beləcə, o, həm fiziki cəhətdən möhkəmlənir, həm də gələcək batır üçün vacib olan ov, at sürmə, döyüş və çöl həyatına uyğunlaşma bacarıqlarını qazanır. Bu məqamda diqqət çəkən məsələ qəhrəmanın "hazırlanması"nın abstrakt şəkildə deyil, konkret epik fəaliyyətlər vasitəsilə göstərilməsidir: at minmək, ov etmək və döyüşmək Koblandının qəhrəmanlıq potensialını fəaliyyətə çevirən əsas hərəkətlərdir.

Keçid ritualları kontekstində baxdıqda ilxı məkanının da xüsusi semantik mahiyyət daşıdığı görünür. Lakin burada ilxını birbaşa ritual məkanı kimi deyil, dastanın qəhrəmanın uşaqlıq mühitindən ayrılmasını və yeni fəaliyyət sahəsinə daxil olmasını işarələyən epik məkan kimi nəzərdən keçirmək daha məqsədəuyğundur. Ev və ailə qəhrəmanın ilkin, ana mühitini ifadə edirsə, ilxı məkanı atçılıq, ovçuluq, döyüş və təcrübənin mənimsənildiyi – evdən kənar mühiti işarələyir. Beləliklə, Koblandının ilxıya gəlməsi məkan dəyişməsi olmaqla yanaşı, onun əvvəlki statusundan yeni statusa doğru hərəkətinin də epik göstəricisinə çevrilir.

Bu mərhələnin mühüm məqamlarından biri Koblandının at minməsi, igidlik öyrənməsi və ən başlıcası, ova çıxmasıdır. Ovun ərgənliklə bağlı semantikası, ovovlamaq, quş-quşlamağın fallik metafora kimi mənalandırılması nəzərə alındıqda, Koblandının Estemislə qarşılaşması, ondan igidlik və kişilik davranışlarını mənimsəməsi, nəhayət ova çıxması onun uşaqlıqdan ərgənliyə keçidinin metaforik-semantik işarəsi kimi oxuna bilər. Səfa Qarayev yazır ki, " ... «oxvə yay» cinsi gücü də simvolizə edir" (Qarayev, 2022: 430).

Psixoanalitik kontekstdə yanaşdıqda Koblandının döyüş sirlərinə yiyələnməsi və ova çıxması onun ərgənləşməsinin, müstəqilləşməsinin, uşaqlıqdan ərgənliyə, "ana mühitindən uzaqlaşma"sının (Dundes, 2005: 358) metaforik ifadəsi kimi nəzərdən keçirilə bilər. Burada ov və döyüş yalnız fiziki fəaliyyət deyil, qəhrəmanın uşaqlıqdan ayrılaraq öz fəaliyyət subyekti kimi formalaşmasını göstərən epik hərəkətlərdir.

Beləliklə, Koblandının ilxı məkanına gəlməsi və Estemisin yanında qazandığı xüsusiyyətlər onun qəhrəman kimi formalaşmasında mühüm mərhələ təşkil edir. Burada Koblandı at minir, ov edir, düşmənlə döyüşür və bununla da "batır"lığa gedən yolun ilkin fəaliyyət mərhələsini keçir. Əgər əvvəlki bölmədə onun seçilmiş doğuluşu qəhrəmanlıq statusunun ilkin semantik əsasını yaradırdısa, burada həmin potensial konkret bacarıq və fəaliyyətlər vasitəsilə reallaşmağa başlayır.

Şərti olaraq, bu mərhələni Koblandının evdən, uşaqlıqdan və ilkin ana mühitindən ayrılması, yeni fəaliyyət məkanına daxil olması, təcrübə və müdriklik daşıyıcısı olan Estemisin yanında yetişməsi, ov, atçılıq və döyüş kimi qəhrəmanlıq fəaliyyətlərini mənimsəməsi mərhələsi adlandırmaq olar.

3. İlk sınaq, ilk yarış, ilk sevgi – Kürtkanın əldə olunması. Koblandının "batırlığa" gedən yolunda növbəti mərhələ Estemisin yanında qazandığı xüsusiyyətlərin artıq onun fərdi keyfiyyətlərinə və qəhrəmanlıq atributlarına çevrilməsidir. Dastanda təsvir olunur ki, bir axşam Koblandı ilə Estemis dağda yatarkən uzaqdan möhkəm səs-küy eşidilir. Estemis izah edir ki, dağın o tərəfində Köktim Aymak adlı xanın eli yerləşir. Onun Kürtka adlı məşhur gözəl qızı vardır. Xan göyə çatan uca dirəyin başına qızıl pul qoydurub və elan edib ki, həmin pulu oxla vurub yerə salan igid Kürtkanı ala bilər (Qaybalıyeva 2025: 43).

Bu epizodda Estemisin funksiyası əvvəlki mərhələdə formalaşmış semantik çərçivə daxilində davam edir. O, yalnız hadisə haqqında məlumat verən personaj deyil, Koblandının qarşısına çıxan yeni situasiyanın mənasını açıqlayan və onun istiqamətlənməsinə yardım edən təcrübəli rəhbərdir. Bu baxımdan Estemisin "lələ" və "xoca" semantikası ilə əlaqələndirdiyimiz funksiyası burada daha aydın görünür: o, qəhrəmanın hələ qarşılaşmadığı sınaq haqqında məlumatı ona çatdırır və beləliklə, qəhrəmanın hazırlıq mərhələsindən ilk açıq sınaq mərhələsinə keçidini təmin edən süjet funksiyasını yerinə yetirir.

Koblandı xəbəri eşidən kimi yarışa getmək istəyir. Estemis əvvəlcə onu bu fikirdən daşındırmağa çalışır. Onun Koblandıya dediyi "... yaşın azdır, qabırğan bərkimiyib qalın deyil, sümüklərin möhkəm deyil" sözləri (Qaybalıyeva 2025: 43) diqqəti xüsusilə cəlb edir. Burada qəhrəmanın fiziki yetkinliyi ilə igidlik statusu arasında semantik əlaqə yaradılır. "Qabırğanın bərkiməsi", "sümüyün möhkəmlənməsi" və yaşın artması yalnız fiziki göstəricilər kimi deyil, qəhrəmanın sınağa hazır olub-olmamasını müəyyənləşdirən epik işarələr kimi çıxış edir. Beləliklə, Estemisin tərəddüdü Koblandının hələ tam formalaşmamış qəhrəmanlıq statusu ilə qarşıdakı sınağın tələbləri arasındakı məsafəni göstərir. Yeri gəlmişkən deyək ki, bu metaforalar, əslində, kişiliyi simvolizə edən detallara işarə edir: sümük bərkiməli, qabırğa qalınlaşmalı, yaşın artmalı və s.

Lakin Koblandı fikrindən dönmür. Estemis ona xeyir-dua verir, zireh, qılınc və ox-yay verərək yola salır. Bununla da əvvəlki mərhələdə qazanılmış bilik və bacarıqlar ilk dəfə müstəqil fəaliyyət müstəvisində özünü göstərir. Koblandı pirlə-

rinə sığınaraq yayı çəkir və uca dirəyin başındakı dəmir pulu vurub yerə salır. Köktim Aymak verdiyi sözə əməl etməli olur. Otuz gün oynanılır, qırx gün toy keçirilir. Lakin bu sınaq bununla başa çatmır. Kızılər adlı güclü rəqib qızın belə asanlıqla verilməsinə razılaşmır və Koblandını güləşə çağırır (Qaybalıyeva, 2025: 45). Koblandı bu sınaqdan da qalib çıxır və rəqibini ağır şəkildə məğlub edir.

Beləliklə, Kürtkanın qazanılması dastanda yalnız evlənmə epizodu kimi deyil, bir-birini tamamlayan iki sınaqdan ibarət qəhrəmanlıq imtahanı kimi qurulur. Birinci sınaqda Koblandının oxatma bacarığı, ikinci sınaqda isə fiziki gücü yoxlanılır. Bu ardıcıllıq əvvəlki mərhələdə Estemisin yanında qazandığı bacarıqların artıq müstəqil qəhrəmanlıq fəaliyyətinə çevrildiyini göstərir. Başqa sözlə, Estemisin yanında öyrənilənlər burada bilik və hazırlıq səviyyəsindən çıxaraq qəhrəmanın özünü təsdiq etdiyi epik fəaliyyətə çevrilir.

Epizodun başlanğıcındakı dağ və yuxu məkanı da təsadüfi deyildir. Koblandının Estemislə dağda yatarkən uzaqdan gələn səs-küyə oyanması qəhrəmanın əvvəlki hazırlıq məkanından yeni sınaq məkanına keçidini təmin edir. Bu motivi məhəbbət dastanlarında "dağa çıxmaq", "ova çıxmaq" kimi qəhrəmanın öz evindən ayrılaraq yeni tale situasiyasına daxil olmasını təmin edən motivlərlə (*buta almanın ekvivalenti kimi*) müqayisə etmək mümkündür. Burada isə həmin struktur daha çox qəhrəmanlıq sınağının başlanğıcını işarələyir.

Kürtka ilə evlənmə də bu baxımdan sadəcə məhəbbət münasibətinin nəticəsi deyil. Qəhrəman evlənmə haqqını sınaqdan keçərək qazanır. Oxatma və güləşin ardıcıl şəkildə təqdim olunması onun həm bacarığının, həm də fiziki hazırlığının təsdiqini təmin edir. Ox-yay motivinin fallik semantikası haqqında Səfa Qarayevin qənaətlərini (Qarayev, 2022: 430) nəzərə aldıqda, Koblandının hədəfi dəqiq vurması, əslində, uğurlu fallik akt icra etməsi kimi oxunula bilər. Lakin burada bizi düşündürən əsas məqam həmin simvolun özündən daha çox, onun qəhrəmanlıq statusunun təsdiqi ilə birlikdə işlənməsidir. Koblandı artıq uşaqlıq mərhələsinin hüdudlarından çıxaraq öz bacarığını el meydanında nümayiş etdirən və bu bacarığı ilə evlənmə haqqı qazanan qəhrəman kimi təqdim olunur.

Bu baxımdan Kürtkanın qazanılması Koblandının bioqrafiyasında mühüm status keçididir: o, əvvəlki mərhələdə hazırlanan gəncdən ilk dəfə meydanda özünü təsdiqləyən igidə çevrilir. Evlənmə həmin keçidin nəticəsi və epik baxımdan rəsmiləşdirilməsi kimi çıxış edir. Deməli, bu mərhələni şərti olaraq Koblandının ilk sınağı, ilk yarışı, el meydanında ilk qələbəsi, qadın uğrunda keçdiyi sınaqlar və evlənməsi kimi xarakterizə etmək mümkündür. Burada evlənmə bioloji yetkinliyin deyil, sınaqdan keçmiş qəhrəmanlıq statusunun epik təsdiqidir.

4. Kürtkanın gəlin köçü və Tayburılın seçilməsi: qəhrəman–at bütövlüyünün formalaşması. Ənənəvi qəhrəmanlıq dastanlarında qəhrəmanın mühüm atributlarından biri onun atıdır. Lakin epik mətnlərdə at yalnız qəhrəmanın istifadə etdiyi vasitə kimi təqdim olunmur. Qəhrəmanla at arasında xüsusi semantik və funksional bağlılıq yaradılır. Qəhrəman fövqəladə mənşəyi və keyfiyyətləri ilə seçildiyi kimi, onun atı da digər atlardan fərqlənən qeyri-adi xüsusiyyətləri ilə səciyyələndirilir. Bu baxımdan qəhrəmanın xüsusi şəraitdə yetişdirilməsi ilə onun atının xüsusi şəkildə yetişdirilməsi arasında struktur paralellik yaranır.

Azərbaycan dastanlarında da bu paralelliyə rast gəlinir. Məsələn, "Koroğlu" dastanında qəhrəmanın atları Qır at və Dür at qırx gün qapalı və qaranlıq yerdə

saxlanılır (Təhmasib, 2005: 10). "Şah İsmayıl" dastanında isə Şah İsmayılın on beş yaşına, yəni ərgənlik çağına qədər qaranlıq yerdə saxlanılması təsvir olunur (Axundov, 2005: 128). Hər iki nümunədə xüsusi yetişdirilmə motivi qəhrəmanlıq keyfiyyətinin formalaşması ilə bağlıdır. Bu baxımdan qəhrəman və onun atı epik mətn daxilində bir-birindən təcrid olunmuş elementlər deyil, qəhrəmanlıq statusunun formalaşmasını təmin edən qarşılıqlı əlaqəli iki semantik komponent kimi meydana çıxır.

"Koblandı batır" dastanında da bu bağlılıq Kürtkanın gəlin köçməsi ilə başlayan süjet xəttində xüsusi şəkildə aktuallaşır. Koblandı ox ataraq hədəfi dəqiq vurmaqla yanaşı, "Kitabi-Dədə Qorqud"da Banıçiçəyin qardaşı Dəli Qarcarı xatırladan Kızılərə də qalib gələrək evlənmə haqqı qazanır (Əlizadə, 2004: 57). Köktim Aymak qızına böyük cehiz – xəzinə yüklü dəvələr, nökərlər və qulluqçular qoşur və Kürtkanı Koblandı ilə yola salır.

Koblandı və Kürtka Qıpçaq yurduna doğru hərəkət edərkən böyük bir ilxının yanından keçirlər. Kürtka atlara diqqətlə baxır və göy-ala bir madyanı seçir. O, həmin madyanın qarnında gələcək böyük döyüş atının olduğunu hiss edir. İlxı Koblandının əmisi Səlim bəyə məxsus olduğundan atı onlara verir. Beləliklə, dastanın bu hissəsindən etibarən Koblandının gələcək döyüşlərdəki yoldaşı olacaq Tayburılın yetişdirilməsi xətti başlanır.

Tayburılın yetişdirilməsi ilə bağlı təsvirlər əvvəlki epik nümunələrdə müşahidə etdiyimiz xüsusi yetişdirilmə modeli ilə səsləşir. Tayburıl çətinliklə doğulur və onun dünyaya gəlməsində Kürtka özü müdaxilə edir. Dastanda onun "dırnağın yerə qoymadı" (Qaybalıyeva, 2025: 52) və "Qırx günə qədər Burıla, Kəhərin südünü əmzirdi" (Qaybalıyeva, 2025: 53) ifadələri ilə təsvir olunması atın adi heyvan olmadığını göstərən xüsusi semantik işarələrdir. At böyüdükcə onun gücü və qeyri-adiliyi üzə çıxır. Altı yaşında ona qızıl yəhər hazırlanır. Eyni zamanda Kürtka Koblandı üçün nizə, qılınc və digər döyüş ləvazimatlarının hazırlanmasını təmin edir.

Burada diqqəti cəlb edən əsas məqam Koblandı ilə Tayburılın yetişdirilməsi arasında yaranan struktur paralellikdir. Koblandı Estemisin yanında xüsusi hazırlıq keçir, burada at minmək, ov etmək və döyüşmək bacarıqlarına yiyələnir. Tayburıl isə Kürtkanın nəzarətində, xüsusi qayğı və hazırlıq şəraitində böyüdülür. Beləliklə, qəhrəmanın formalaşması ilə onun atının formalaşması eyni epik semantik xətt daxilində bir-birini tamamlayır. Bu paralellik Tayburılın sonradan Koblandının qəhrəmanlıq fəaliyyətində tutacağı mövqeni də əvvəlcədən müəyyənləşdirir.

Deməli, Tayburıl sadəcə at deyil, o, qəhrəmanın hərəkət imkanları, döyüş gücü və igidlik statusu ilə semantik və funksional baxımdan bütövləşir. Bu bütövlük sonrakı hadisələrdə daha aydın görünür. Əsirlik zamanı Tayburılın Koblandının əlindən alınması qəhrəmanın yalnız atından məhrum edilməsi deyil, onun hərəkət və döyüş imkanlarının da məhdudlaşdırılması kimi təqdim olunur. Xilas səhnəsində isə Tayburılın kişnəməsi Koblandının qaranlıq məkandan çıxışını şərtləndirən mühüm işarəyə çevrilir. Karlığanın onu yenidən atına mindirməsi və silahlandırması ilə qəhrəmanın döyüşçü kimi əvvəlki vəziyyəti bərpa olunur. Bu səhnə qəhrəman–at münasibətinin epik qəhrəmanlıq modelindəki mühüm yerini göstərir və onların arasındakı bütövlüyün bərpası kimi səciyyələndirilə bilər.

Bu mərhələdə Kürtkanın funksiyası da xüsusi əhəmiyyət daşıyır. O, gələcək döyüş atını seçən, onun qeyri-adi xüsusiyyətini əvvəlcədən sezən, Tayburılın yetişdirilməsində iştirak edən və eyni zamanda Koblandının döyüş üçün zəruri vasitələrinin hazırlanmasını təmin edən fəal obrazdır. Deməli, Kürtkanın funksiyası yalnız qəhrəmanın evləndiyi qadın obrazı ilə məhdudlaşmır. O, qəhrəmanın gələcək fəaliyyətinin maddi və semantik hazırlığında bilavasitə iştirak edir. Bu baxımdan Kürtkanın uzaqgörənliyi və hazırlayıcı funksiyası onun epik süjetdə aktiv subyekt kimi mövqeyini müəyyənləşdirir.

Beləliklə, Koblandının "batırlıq" yolunda əvvəlki mərhələlərdə müşahidə olunan xətt burada yeni məzmun qazanır: övladsızlıqdan möcüzəli doğuluşa, möcüzəli doğuluşdan xüsusi yetişdirilməyə, uşaqlıqdan ayrılmadan ilk ov və yarış sınaqlarına, oradan isə evlənməyə qədər davam edən qəhrəmanlıq xətti Kürtkanın seçilməsi və Tayburılın yetişdirilməsi ilə tamamlanaraq qəhrəmanın fəaliyyət imkanlarını təmin edən yeni mərhələyə keçir. Bu mərhələdə qəhrəmanın özü ilə onun atı arasında semantik-funksional bütövlük yaranır. Sonrakı yürüşlərdə bu bütövlük yalnız qəhrəmanın döyüş imkanlarının deyil, onun epik statusunun da mühüm göstəricilərindən birinə çevrilir.

5. Evdən "ritual" ayrılma: ailə ilə dramatik vidalaşma və qəhrəmanın düşmən üzərində qələbəsi. Qazan xan üzərinə səfərdən əvvəlki dramatik vida səhnələri dastanın inisiasiya semantikasını ehtiva edən mühüm məqamlardandır. Koblandı bacısı Karlığaşla, Kürtka ilə, ata və anası ilə vidalaşır. Kürtka onun seçilmiş doğuluşunu xatırladır, səfərin çətin olacağını bildirir və deyir: "Getməlisənsə, sultanım, Qaynanamın köksünə, Dodağınla toxun, get" (Qaybalıyeva, 2025: 80). Dastanın orijinal mətnində – qazax dilində – bu ifadə belədir: "Кетер болсаң, сұлтаным, Енекемнің еміп кет, Төсінде екі мамасын" (Qaybalıyeva, 2025: 80).

Düşünürük ki, bu səhnəni konkret tarixi ritualın qorunub saxlanmış forması kimi nəzərdən keçirməkdənsə, onu müəyyən hərəkətlərin, münasibətlərin və məna qatlarının spesifik şəkildə ifadə olunduğu və mənalandırıldığı ritual prosesi kimi dəyərləndirmək daha məqsədəuyğundur. Bellin ritualizasiya konsepsiyası ritualı əvvəlcədən müəyyənləşdirilmiş və sabit mərasim praktikalarının məcmusu kimi deyil, müəyyən hərəkətlərin digər fəaliyyətlərdən fərqləndirildiyi və spesifik mənalarla yükləndiyi mədəni strategiya kimi anlamağa imkan verir (Bell, 1992: 74).

Bu detal xüsusilə diqqətəlayiqdir. S. Qaybalıyeva həmin hərəkəti döyüş qabağı valideyn xeyir-duası ilə bağlı icra olunan qədim ayin kimi izah edir (Qaybalıyeva, 2025: 80). Lakin burada əsas məsələ motivin etnoqrafik mənşəyini müəyyənləşdirməkdən daha çox, onun dastanın süjet və semantik strukturu daxilində hansı funksiyanı yerinə yetirməsidir, daha dəqiq desək, bu davranışın psixosemantikasının müəyyənləşdirilməsidir. Analoji situasiyaya "Kitabi-Dədə Qorqud" eposunun "Dirsə xan oğlu Buğac" boyunda bir qədər fərqli formada rast gəlirik. Məsələyə psixoanalitik kontekstdə yanaşan folklorşünas S.Qarayev yazır: ""KDQ"-də Xızırın ana südünü sağaldıcı//dirildici nəsnə kimi təklif etməsi, yəni məmənin sağaldıcı gücü motivi Edip kompleksi kontekstində uşağın mövqeyi əsasında yaradılmışdır. Əslində, burada məmənin uşaq üçün qidalandırıcı mənbədən daha böyük məzmun daşıması açıq şəkildə hiss olunur. Burada Xızırın da təsdiqlədiyi kimi, dağ çiçəyi ilə qarışdırılmış "ana südü" qidalandırıcı yox, sağaldıcı vasitə kimi çıxış edir. Başqa sözlə, qəhrəmana qüvvə, dirilmə gücü bəxş edir" (Qarayev,

2022: 282). Buğacın şəfası üçün ortaya çıxan ana döşü, ümumilikdə, S.Qarayevin təhlillərindən məlum olduğu kimi, ana mühitinə bağlılığı, ata ilə konflikt yaradan nəsnəni bildirir. Alim ana döşlərinin psixosemantikasını müxtəlif metaforalar, o cümlədən, "süd gölü", "dirilik suyu" əsasında araşdıraraq onu infantil arzunun və oral aqressiyanın obyekti kimi təhlil edir (Qarayev, 2022: 270-324).

Məsələyə münasibət bildirməzdən əvvəl, bir nəzəri-metodoloji şərti diqqətə çatdırmaq istərdik. Koblandının "batırlıq" yolunun inisiasiya məzmunu ilə bağlı apardığımız təhlildə məqsəd heç də dastanın süjetini ritual xətt kimi izah etmək deyil. Hesab edirik ki, qəhrəmanın bir mərhələdən digər mərhələyə keçidi dastandakı uşaqlıqdan ayrılmanı, ana mühitindən ata mühitinə keçidi, evlənməni, bütövlükdə, kişiliyi, ərgənliyi ifadə edən metafora və simvollarda işarələnmişdir. Düşünürük ki, dastanda Koblandının Qazan xan üzərinə hücum ərəfəsində anasının döşünü əmməsi qədim ayin və yaxud ritualdan daha çox, qəhrəmanın inisiasiya prosesini təşkil edən *doğuluş–ayrılma–yenidən doğuluş* semantikasının epik ifadəsi kimi anlaşılmalıdır. Çünki burada diqqətçəkən məqam onun məhz təhlükəli səfərdən, başqa sözlə, həyatının əvvəlki mərhələsini dəyişdirəcək sınaqdan əvvəl ana döşünə qaytarılmasıdır. Qəhrəmanın qarşısında yeni bir "doğuluş" mərhələsi dayandığı üçün dastan onu əvvəlcə ilkin doğuluşunun semantik mənbəyinə – ana döşünə qaytarır. Başqa şəkildə desək, ölümcül yaralanan Buğac səhnəsində ana döşü oğulun ölümdən xilas edilməsini işarə edirsə, Koblandıda bu metafora, ölümə gedən oğula, öncədən tətbiq edilən "dirilik", "sağ qalma", həyat enerjisi semantikası kəsb edir.

Bu məqam *"yenidən doğuluş"* anlayışını da məhz epik kontekstdə düşünməyə imkan verir. Dastan artıq mövcud olan qəhrəmanlıq potensialını yeni sınaq vasitəsilə başqa bir statusda reallaşdırır. Bu səbəbdən ana döşü ilə səfər arasında yaradılan əlaqə təsadüfi poetik detal təsiri bağışlamır: qəhrəmanın yeni mərhələyə keçidi əvvəlki doğuluşunun semantik modelində kodlaşdırılır. Beləliklə, burada "yenidən doğuluş" fiziki doğuluş deyil, qəhrəmanlıq statusunun yeni sınaq şəraitində yenidən aktuallaşdırılması və təsdiqlənməsidir.

Beləliklə, Qazan xan üzərinə səfərdən əvvəl emosional-ekspressiv təsvirlərlə müşayiət olunan dramatik vida səhnəsində ana döşünün işarələnməsi Koblandının "batır" kimi yenidən aktuallaşmasının mühüm semantik göstəricisinə çevrilir. Qəhrəman batır olaraq yalnız döyüş meydanında qalib gəlməklə "doğulmur", dastan onun batırlıq yoluna çıxmasını əvvəlcə ilkin doğuluşunun semantik mənbəyinə qayıdışla işarələyir. Ana döşündən ayrılmanı – "vidalaşmanı" işarələyən həmin metafora ata mühitinə keçidi, ərgənləşməni, fallik məzmunu ehtiva edir və qəhrəmanın yeni epik statusunun təsdiqi ilə tamamlanır.

Süjetdən aydın olur ki, Koblandı Tayburıla minəndə atın qeyri-adi sürəti özünü dərhal göstərir. Dağlar, yarğanlar, çaylar və uzun yollar bir-birinin ardınca arxada qalır. Tayburıl bəzən sanki uçur, Koblandı isə onunla danışır, onu yol yoldaşı və döyüş ortağı kimi qəbul edir. Beləliklə, əvvəlki bölmədə formalaşdırılan qəhrəman-at bütövlüyü burada artıq hərəkət və döyüş müstəvisində reallaşır. Koblandının döyüşdəki fəaliyyəti onun fiziki gücü və silah bacarığı ilə yanaşı, Tayburılın qeyri-adi imkanları ilə də tamamlanır.

Döyüş nəticəsində Koblandı düşməni məğlub edir və Qazanın hücumunun qarşısı alınır. Bu qələbə onun əvvəlki statusunun sadəcə təkrarı deyil. Koblandı

artıq Kürtkanı qazanmış gənc və sınaqlardan keçən igid kimi deyil, öz el-obasının müdafiəsini həyata keçirən batır kimi təqdim olunur. Beləliklə, əvvəlki mərhələlərdə fərdi şəkildə formalaşan qəhrəmanlıq keyfiyyətləri burada kollektiv əhəmiyyət daşıyan fəaliyyətə çevrilir.

Şərti olaraq, bu mərhələni Koblandının evdən "ritual" ayrılması, ailə ilə dramatik vidalaşması, ilkin doğuluşun semantik mənbəyinə qayıdış və yeni sınaqdan keçərək el-obanın müdafiəçisi kimi təsdiqlənməsi mərhələsi adlandırmaq olar. Bu mərhələdə ayrılma artıq sadəcə məkan dəyişməsi deyil: qəhrəman əvvəlki statusundan ayrılaraq yeni təhlükə və məsuliyyət müstəvisinə daxil olur. Qələbə isə həmin keçidin nəticəsini - "batır" statusunun daha yüksək səviyyədə təsdiqini - təmin edir.

6. Köbiktı üzərinə uğursuz yürüş və əsirlik: qəhrəmanlıq statusunun liminal böhranı. Qəhrəmanın inisiasiya modeli yalnız yüksələn xətt üzrə hərəkət etmir. Qəhrəmanlıq statusunun formalaşması və təsdiqi prosesində əvvəlki statusun müvəqqəti olaraq dayandırıldığı, qəhrəmanın sanki aralıq vəziyyətə keçdiyi böhran mərhələləri də meydana çıxır.

Turnerin liminallıq konsepsiyasına görə, keçid mərhələsi fərdin əvvəlki statusu ilə formalaşmaqda olan yeni statusu arasında yerləşən, qeyri-müəyyənliklə səciyyələnən və struktur baxımından aralıq xarakter daşıyan vəziyyətdir. Bu nəzəri çərçivədən çıxış edərək, Koblandının əsirlik vəziyyətini onun qəhrəmanlıq funksiyasının müvəqqəti olaraq dayandırıldığı, lakin qəhrəmanlıq kimliyinin özünün qorunduğu liminal vəziyyət kimi şərh etmək mümkündür (Turner, 1969: 95).

"Koblandı batır" dastanında bu mərhələ Koblandının Köbiktı üzərinə uğursuz yürüşündən sonra əsir düşməsi, silahından və atından məhrum edilməsi, qaranlıq məkanda saxlanılması ilə ifadə olunur. İnisiasiya modeli baxımından bu vəziyyət liminallıq – əvvəlki statusla yeni status arasındakı keçid və qeyri-müəyyənlik mərhələsi kimi təhlil edilə bilər.

Maraqlı məqam ondan ibarətdir ki, dastan Koblandının uğursuzluğunu birbaşa səbəb-nəticə əlaqəsi şəklində izah etmir, hadisənin semantik çərçivəsini müəyyənləşdirən bir sıra işarələr təqdim edir. Qəhrəmanın yuxuya getməsi, ehtiyatsızlığı, pirləri yada salmaması və düşmənin hiyləsi bu baxımdan diqqət çəkir. Dastanda deyilir: "Yeddi pir sahibinə, Dua etməyi unutmuşdular, Şeytan onları azdırmışdı!" (Qaybalıyeva 2025: 121). Burada pir yaddaşının unudulması əvvəlki epizodlarda qəhrəmanın sınağa hazırlanması ilə bağlı olan sakral-semantik xəttin müvəqqəti zəifləməsini göstərən mətn işarəsi kimi çıxış edir. Deməli, dastan məğlubiyyəti yalnız fiziki qarşıdurmanın nəticəsi kimi deyil, qəhrəmanın əvvəlki hazırlıq və sakral qorunma sistemindən uzaqlaşması ilə müşayiət olunan böhran kimi qurur.

Köbiktı Koblandını yatdığı yerdə doqquz qat torla bağlayır. Qəhrəman oyandıqdan sonra torun beş qatını qırsa da, tam azad ola bilmir. Daha sonra Karamanla birlikdə qandallanır, atları əllərindən alınır və qaranlıq yerə salınırlar. Bu ardıcıllıq qəhrəmanın əvvəlki mərhələlərdə qazandığı əsas fəaliyyət imkanlarının bir-bir məhdudlaşdırılmasını göstərir. Silahın olmaması döyüş funksiyasını, atın alınması hərəkət imkanını, qaranlıq məkan isə qəhrəmanın öz fəaliyyətini həyata keçirdiyi epik məkandan təcrid olunmasını işarələyir.

Bu səbəbdən həmin səhnəni inisiasiya modelinin liminal mərhələsi kimi oxumaq mümkündür. Viktor Turnerin liminallıq haqqında nəzəriyyəsində keçid vəziyyətinin əsas xüsusiyyəti əvvəlki statusun müəyyən müddətə dayandırılması və subyektin "nə burada, nə də orada" vəziyyətində qalmasıdır (Turner, 1969: 95). Koblandının əsirliyi də epik mətn daxilində buna bənzər struktur yaradır: o, artıq əvvəlki kimi sərbəst hərəkət edən və döyüşən qəhrəmandır, lakin hələ yeni sınaqdan keçərək əvvəlkindən daha yüksək səviyyədə təsdiqlənmiş batır statusuna qayıtmayıb.

Bu mənada əsirlik epizodunu şərti olaraq "simvolik ölüm" kimi də interpretasiya etmək mümkündür. Burada söhbət qəhrəmanın real ölümündən deyil, onun əvvəlki qəhrəmanlıq funksiyasının müvəqqəti dayandırılmasından gedir. Qaranlıq məkan, bağlanma, silahsızlıq və atsızlıq əvvəlki epik statusun fəaliyyət müstəvisində təsirsizləşdirilməsini simvollaşdırır. Koblandının adı, qəhrəmanlıq kimliyi yox olmur, müvəqqəti olaraq dayandırılan onun həmin kimliyi döyüş və hərəkət vasitəsilə reallaşdırmaq imkanlarıdır. Məhz bu fərq epizodun "simvolik ölüm" kimi təhlilini məqsədəuyğun edir.

Bu baxımdan əsirlik səhnəsi "Koblandı batır" dastanındakı qəhrəman–at münasibətinin semantik əhəmiyyətini də yenidən üzə çıxarır. Əvvəlki mərhələdə Tayburılın qəhrəmanın hərəkət və döyüş imkanları ilə semantik-funksional bütövlük yaratdığı göstərilmişdi. Burada atın alınması həmin bütövlüyün zorla pozulması kimi təqdim edilir. Deməli, qəhrəmanın əsirliyi yalnız fiziki azadlığın itirilməsi deyil, əvvəlki bölmədə formalaşan qəhrəmanlıq sisteminin əsas komponentlərindən məhrum edilməsidir.

Köbiktı əsirləri qızı Karlığaya tapşırır və onlara sərt davranmağı, qaranlıq yerdə saxlamağı əmr edir. Lakin Karlığa iki igidi əli-qolu bağlı vəziyyətdə gördükdə hadisələrin istiqaməti dəyişməyə başlayır. Beləliklə, liminal vəziyyətin daxilində onun aradan qaldırılmasına doğru yeni hərəkət xətti yaranır. Qəhrəmanın öz imkanlarını itirdiyi mərhələdə süjet onun xilası və qəhrəmanlıq funksiyasının bərpası üçün başqa bir subyekti – Karlığanı önə çıxarır.

Şərti olaraq, bu mərhələni Koblandının əvvəlki qəhrəmanlıq fəaliyyətindən məhrum edildiyi, onun epik statusunun böhran keçirdiyi və "simvolik ölüm"lə səciyyələnən liminal vəziyyət kimi xarakterizə etmək mümkündür. Lakin bu liminallıq qəhrəmanlıq statusunun sonu deyil. Əksinə, əvvəlki statusun müvəqqəti dayandırılması sonrakı mərhələdə onun yenidən qurulması üçün zəruri süjet və semantik zəmin yaradır.

7. Koblandının əsirlikdən xilas olması və qəhrəmanlıq statusunun bərpası. Əsirlik Koblandının əvvəlki mərhələlərdə qazandığı qəhrəmanlıq atributlarının fəaliyyət müstəvisində müvəqqəti olaraq məhrum edildiyi mərhələdir. Qəhrəman öz adını, keçmiş şöhrətini və qəhrəmanlıq kimliyini saxlayır, lakin bunları sərbəst şəkildə həyata keçirmək imkanından məhrumdur. Lakin bu vəziyyətin dəyişməsi Karlığanın süjetə fəal şəkildə daxil olması ilə başlanır. Karlığa Koblandını gördükdə onun qeyri-adi igidliyini hiss edir və ona qarşı güclü hisslər keçirir. O, əsirlərin yanına gedir, onların vəziyyətini öyrənir və qaçmaları üçün şərait yaratmağa çalışır. Bununla belə, Koblandı ilk anda Karlığanın təklifini özünə təhqir kimi qəbul edir və qəhrəmanlıq qürurunu qoruyur. Bu məqam da diqqətəlayiqdir:

fiziki baxımdan əsir vəziyyətində olsa da, Koblandı öz qəhrəmanlıq kimliyini itirməmişdir. Onun etirazı həmin kimliyin daxili səviyyədə qorunduğunu göstərir.

Karlığa isə qəhrəmanın vəziyyətini dəyişdirmək üçün plan qurur. Karaman gecə atları gətirir. Tayburılın ayağına nazik ip bağlanır və at ağrıdan kişnəyir. Bu səs qaranlıq məkanda olan Koblandıya çatır. Tayburılın səsi burada sadəcə atın çıxardığı səs deyil, əvvəlki mərhələdə pozulmuş qəhrəman–at bütövlüyünü yenidən əlaqələndirən semantik işarəyə çevrilir. Qaranlıqda Koblandını xarici aləmlə və öz qəhrəmanlıq fəaliyyətinin əsas komponentlərindən biri ilə yenidən bağlayan məhz bu səsdir. Koblandı həmin işarənin ardınca hərəkət edir və nəhayət, əsirlikdən çıxır.

Karlığa ona ağ zirehini, qılıncını və digər silahlarını qaytarır, Tayburıla mindirir (Qaybalıyeva, 2025: 124-129). Bu səhnədə qəhrəmanlıq statusunun bərpası ardıcıl şəkildə təqdim olunur. Silahların qaytarılması Koblandının döyüş funksiyasının, Tayburılın qaytarılması isə onun hərəkət və döyüş imkanlarının bərpasını təmin edir. Beləliklə, Karlığa yalnız əsiri azad etmir, Koblandının əvvəllər formalaşmış qəhrəmanlıq sisteminin əsas atributlarını yenidən bir araya gətirir. Əsirlikdə parçalanmış qəhrəman–silah–at bütövlüyü yenidən qurulur.

Bu epizod "Koblandı batır" dastanının qəhrəmanlıq modelində qadın obrazlarının funksiyasını da xüsusi şəkildə üzə çıxarır. Koblandının kritik vəziyyətdən çıxarılmasını məhz Karlığa təşkil edir. Bu baxımdan onun fəaliyyəti Kürtkanın əvvəlki mərhələdəki funksiyası ilə səsləşir. Kürtka gələcək döyüş atını seçir, Tayburılın yetişdirilməsində iştirak edir, Koblandı üçün silah və döyüş ləvazimatlarının hazırlanmasını təmin edir. Karlığa isə qəhrəmanın ən ağır böhran anında onun azadlığını və qəhrəmanlıq fəaliyyətinin bərpasını təmin edir. Beləliklə, hər iki qadın obrazı qəhrəmanın fəaliyyətini kənardan müşayiət edən passiv fiqurlar deyil, onun qəhrəmanlıq yolunun ayrı-ayrı mərhələlərində həlledici funksiyalar yerinə yetirən aktiv subyektlər kimi çıxış edir.

Əsirlikdən çıxdıqdan sonra Koblandı Köbiktı ilə yenidən qarşılaşmağa qərar verir. Bu qarşıdurmada Karlığanın rolu yalnız xilasetmə ilə məhdudlaşmır. O, atasının gücünü və zəif tərəflərini bilir və bu məlumat Koblandı üçün döyüş zamanı mühüm əhəmiyyət daşıyır. Köbiktı güclü rəqibdir və qarşıdurma asan başa gəlmir. Nəticədə Koblandı onu məğlub edir. Beləliklə, əsirlikdən çıxışla başlayan qəhrəmanlıq statusunun bərpası düşmən üzərində yeni qələbə ilə tamamlanır.

Karlığanın bu qarşıdurmada Koblandının tərəfində dayanması onun öz əvvəlki ailə və qala mühitindən ayrılmasına gətirib çıxarır. O, Koblandı və Karamanla birlikdə yola çıxır. Qəhrəmanların böyük qənimət və ilxı ilə geri dönməsi isə liminal mərhələnin başa çatdığını və qəhrəmanlıq fəaliyyətinin yenidən bərpa olunduğunu göstərir.

Beləliklə, bu mərhələni Karlığanın fəal müdaxiləsi ilə Koblandının əsirlikdən, şərti olaraq "simvolik ölüm" vəziyyətindən çıxması, qəhrəmanlıq atributlarının – silah, at və döyüş funksiyasının – bərpası və Köbiktı üzərində qələbə ilə qəhrəmanlıq statusunun yenidən təsdiqlənməsi mərhələsi kimi xarakterizə etmək mümkündür. Burada "yenidən doğuluş" əvvəlki doğuluşun təkrarı deyil: qəhrəman artıq formalaşmış batır kimi böhrandan çıxır və öz statusunu daha yüksək sınaq səviyyəsində yenidən təsdiqləyir.

8. Qəhrəmanın geri dönüşü: növbəti sınaq, qələbə və kollektiv reinteqrasiya. Koblandı Karlığanın köməyi ilə müvəqqəti "ölüm" vəziyyətindən çıxaraq

Köbiktıya qalib gəlir. Lakin bu qələbədən sonra onun el-obasına qayıdışı dərhal baş vermir. Geri dönərkən Tayburılın axsadığı üçün Koblandı bir müddət yolda tək qalır. Fürsətdən istifadə edən Karaman və kıyatlılar qənimətləri bölərək irəli gedirlər. Beləliklə, qəhrəmanın əsirlikdən çıxması ilə başlayan bərpa prosesi hələ tamamlanmır, onun qarşısında yeni sınaq dayanır.

Dastanda tək qalan Koblandının keçirdiyi daxili sarsıntı da geniş təsvir olunur. O, yuxuda yeddi pir sahibini görür və onlardan xəbər alır ki, düşmən onun elini-obasını viran qoyub: atası qoyun otaran çobana çevrilib, anası yun əyirir, bacısı qızılbaşın elində düşmənə çay qaynadır, ömür-gün yoldaşı Kürtka isə kalmık xanı Alşağırın əlindədir. Bu xəbəri eşidən Koblandı qorxu içində yuxudan oyanır və Karlığa ilə birlikdə elinə doğru hərəkət etməyə başlayır.

Burada yuxu yalnız gələcək hadisələri xəbər verən epizod deyil. O, qəhrəmanın fərdi sınaqdan kollektiv məsuliyyət müstəvisinə keçidini təmin edən süjet mexanizmi kimi çıxış edir. Əsirlikdən xilas olaraq Köbiktıya qalib gəlməsi Koblandının şəxsi qəhrəmanlıq statusunu bərpa etmişdi. Lakin yuxuda el-obanın düşmən tərəfindən dağıdılması xəbəri onun qarşısında daha geniş vəzifə yaradır: artıq söhbət yalnız öz azadlığından və şəxsi qələbəsindən deyil, kollektivin taleyindən gedir. Bu baxımdan yuxu əvvəlki sınağın tamamlanmasından sonra yeni sınağa çağırış funksiyasını yerinə yetirir.

Koblandı düşmənin nəzarətində olan məkana yaxınlaşır və Kürtkanın vəziyyətindən xəbər tutur. Kürtka ağır şəraitdə olsa da, ərinin sağ qayıdacağına ümidini itirmir. Koblandı onunla gizli şəkildə görüşür. Kürtka burada da hadisələrin gedişinə təsir edən məsləhətlər verir. Beləliklə, əvvəlki bölmədə qəhrəmanın formalaşmasında iştirak edən Kürtkanın funksiyası bu mərhələdə də davam edir: o, yalnız gözləyən və xilas olunması tələb olunan qadın obrazı kimi deyil, qəhrəmanın qərar və fəaliyyətinə istiqamət verən fəal obraz kimi çıxış edir.

Koblandı ailəsinin və qıpçaqların vəziyyətini tam öyrəndikdən sonra yeni döyüşə hazırlaşır. Karlığa da bu mərhələdə onun yanında olan əsas döyüşçülərdən biridir. Nəhayət, Alşağır xan və onun igidləri ilə döyüş başlayır. Koblandı, Karlığa, Karaman, Orak və başqa igidlər birgə vuruşurlar. Döyüş zamanı Karlığa bir neçə dəfə Koblandının köməyinə çatır. Qəhrəmanın vəziyyəti çətinləşəndə onun fəallığı döyüşün gedişinə təsir edir. Beləliklə, əvvəlki mərhələdə Koblandının xilasını təmin edən Karlığanın funksiyası burada artıq birbaşa döyüş fəaliyyətində davam edir.

Döyüşün gedişində düşmən qüvvələri bir-bir məğlub edilir, əsir qıpçaqlar azad olunur. Qalanın malı və qəniməti geri alınır, əsirlərin azadlığı təmin edilir. Bu qələbə Koblandının əvvəlki zəfərlərindən məzmun etibarilə fərqlənir. Əvvəlki sınaqlarda qəhrəman əsasən öz qəhrəmanlıq keyfiyyətlərini və statusunu təsdiqləyirdisə, burada həmin status kollektivin azadlığı və el-obanın bərpası ilə əlaqələnir. Qəhrəmanlıq funksiyası fərdi özünütəsdiqdən çıxaraq elin müdafiəsi və bərpası funksiyasına çevrilir.

Bu baxımdan Koblandının geri dönüşü sadəcə öz yurduna fiziki qayıdış deyil. O, düşmənin nəzarətində olan məkana daxil olur, yeni sınaqdan keçir, qələbə qazanır və əsir qıpçaqları azad edərək əvvəlki kollektiv nizamın bərpasında iştirak edir. Deməli, onun qayıdışı epik reinteqrasiyanın əsas məzmununu təşkil edir. Van Gennepin keçid modelində reinteqrasiya mərhələsi subyektin yeni statusla

əvvəlki kollektiv mühitə qayıtmasını nəzərdə tutursa, Koblandı dastanında bu qayıdış qəhrəmanın dəyişmiş funksiyası ilə baş verir: o, artıq yalnız eldən ayrılmış və sınaqlardan keçmiş igid deyil, el-obanın müdafiəçisi və xilaskarı kimi qayıdır.

Koblandı ilə Kürtkanın toyunun bu mərhələdə ayrıca vurğulanması da onların münasibətinin qəhrəmanın elə qayıdışı ilə əlaqələndirildiyini göstərir. Evlənmə əvvəlki mərhələdə olduğu kimi, yalnız fərdi münasibətin nəticəsi deyil; qəhrəmanın keçdiyi sınaqlar və qazandığı status fonunda onun həyatındakı əvvəlki münasibətin yeni epik mərhələdə təsdiqidir.

Karlığanın vəziyyəti isə fərqli istiqamətdə inkişaf edir. O, Koblandı üçün atasını və doğma elini tərk etmiş, dəfələrlə onun xilasına və döyüş fəaliyyətinə yardım etmişdir. Buna görə Koblandının onunla evlənəcəyinə inanır. Lakin Koblandı dərhal belə bir qərar vermir. Karlığa özünü haqsızlığa uğramış hiss edir və incik halda dağa çəkilir. Bu epizod qəhrəmanlıq süjetinin yalnız döyüş və qələbələrdən ibarət olmadığını, əvvəlki sınaqlarda formalaşan münasibətlərin də sonrakı süjet xəttinə təsir etdiyini göstərir.

Kürtka isə Karlığanın göstərdiyi xidmətləri və sədaqəti anlayır və ona rəğbətlə yanaşır. Beləliklə, Karlığa–Kürtka münasibəti rəqabət modelinə tam şəkildə tabe edilmir; əksinə, hər iki qadın obrazının Koblandının qəhrəmanlıq bioqrafiyasındakı müxtəlif funksiyaları üzə çıxır. Kürtka qəhrəmanın əvvəlcədən hazırlanması, Tayburılın seçilməsi və yetişdirilməsi, məsləhət və uzaqgörənlik funksiyaları ilə, Karlığa isə böhran zamanı xilas, döyüş və bərpa funksiyaları ilə seçilir.

Beləliklə, bu mərhələni Koblandının əsirlikdən sonrakı yeni sınaqdan keçməsi, düşmən üzərində qələbə qazanaraq el-obanın azadlığını və əvvəlki kollektiv nizamı bərpa etməsi, bununla da qəhrəmanlıq statusunu kollektiv müstəvidə yenidən təsdiqləyərək reinteqrasiya olunması mərhələsi kimi xarakterizə etmək mümkündür. Burada geri dönüş əvvəlki vəziyyətə sadə qayıdış deyil: qəhrəman sınaqlardan keçmiş, öz statusunu yenidən təsdiqləmiş və artıq həmin statusu el-obanın müdafiəsi və bərpası funksiyası ilə tamamlamış şəkildə geri qayıdır.

9. Bökenbayın doğuluşu və atasının qəhrəmanlıq yolunun təkrarı. Koblandı ilə Kürtkanın doğma yurda qayıdıb qovuşmasından sonra onların oğlu dünyaya gəlir. El ağsaqqalları uşağa Bökenbay adını verirlər. Uşaq erkən yaşlarından qeyri-adi qəhrəmanlıq əlamətləri nümayiş etdirir. Dastanda onun hələ bir yaşından ox atması, yaş artdıqca gücünün də sürətlə artması poetik şəkildə təsvir olunur. Beləliklə, Bökenbayın doğuluşu da Koblandının doğuluşunda olduğu kimi, onun gələcək qəhrəmanlıq bioqrafiyasını əvvəlcədən işarələyən semantik çərçivə daxilində təqdim edilir.

Bökenbay xətti Koblandı bioqrafiyasının struktur modelinin yeni nəsildə təkrarlanmasıdır. Bökenbayın bioqrafiyası Koblandının həyat trayektoriyasının sadəcə təkrarı deyil, əksinə, ənənə daxilində daha əvvəl formalaşmış qəhrəmanlıq modelinin yeni qəhrəmanın timsalında təzədən aktuallaşdırılmasını ifadə edir (Foley, 1991: 1–16).

Uşağın erkən yaşlarından qeyri-adi bacarıqlar nümayiş etdirməsi, altı yaşında atasına oxşadılması, Estemisin saxladığı ilxıya getməsi və burada döyüş bacarıqlarına yiyələnməsi Koblandının uşaqlıq mərhələsində müşahidə olunan ardıcıllığı yenidən aktuallaşdırır. Beləliklə, "altı yaş – ilxı – Estemis – at – döyüş" kompleksi yeni qəhrəmanın bioqrafiyasında təkrar meydana çıxır. Bu təkrar sadə-

cə süjet oxşarlığı deyil, dastanın qəhrəmanlıq modelini nəsildən-nəslə ötürən struktur mexanizminin göstəricisidir.

Şoşayla təkbətək döyüşdə Bökenbayın meydana çıxması bu struktur təkrarını növbəti mərhələyə keçirir. Burada qəhrəman artıq atasının bioqrafiyasını təkrarlayan uşaq deyil, onunla eyni epik model daxilində öz qəhrəmanlıq statusunu təsdiqləyən yeni nəsil qəhrəmandır. Sonradan Tayburıla minməsi də bu baxımdan xüsusi semantik əhəmiyyət daşıyır. Koblandı üçün Tayburıl onun qəhrəmanlıq statusu ilə semantik-funksional bütövlük təşkil edən əsas atributlardan biri olduğu halda, Bökenbayın həmin ata minməsi qəhrəman–at münasibətinin bir fərdin bioqrafiyasından çıxaraq nəsil daxilində davam edən epik yaddaş elementinə çevrildiyini göstərir.

Dastanın son hissələrində Koblandı Karlığanın onun yolunda etdiklərini yenidən dəyərləndirir. Karlığa atasını, qardaşını və doğma mühitini tərk etdiyini, bütün bunları Koblandıya sədaqəti naminə etdiyini xatırladır. Kürtka da onun haqqını tanıyır. Uzun sürən ixtilafdan sonra Koblandı ilə Karlığa barışır və Koblandı onunla evlənir. Beləliklə, Karlığanın qəhrəmanın əvvəlki sınaq mərhələsində göstərdiyi yardım və sədaqət dastanın sonrakı hissəsində yenidən mənalandırılır.

Beləliklə, dastanın geniş süjet xətti Koblandının seçilmiş doğuluşundan başlayaraq onun hazırlıq, sınaq, evlənmə, qəhrəmanlıq statusunun təsdiqi, böhran və yenidən status qazanma mərhələlərindən keçərək elin müdafiəçisinə çevrilməsini, daha sonra isə həmin qəhrəmanlıq modelinin Bökenbayda təkrarlanmasını əhatə edir. Dastanın son qısa hissəsində Karlığanın oğlu Kiikbayın doğuluşuna işarə edilməsi və onun haqqında ayrıca dastan ənənəsinin mövcudluğunun xatırladılması bu strukturun Bökenbayla da bitmədiyini göstərir.

Honkoya görə, şifahi ənənənin davamlılığının əsasında "sabitlikdən daha çox çeviklik" dayanır. Belə ki, ənənəvi süjetlər konkret ifa situasiyalarında davamlı olaraq dəyişdirilir və yeni şəraitə uyğunlaşdırılır (Honko, 2000, s. 3–28). Bu perspektivdən yanaşdıqda, Koblandı–Bökenbay xətti boyunca müşahidə olunan təkrarlanma eyni süjet elementlərinin sadəcə yenidən təkrarlanması kimi deyil, qəhrəmanlıq modelinin davam edən epik ənənə daxilində ötürülməsi və yeni şəkildə reallaşdırılması kimi başa düşülməlidir.

Beləliklə, "Koblandı batır" dastanında inisiasiya modeli yalnız bir qəhrəmanın fərdi bioqrafiyasını təşkil edən struktur kimi deyil, qəhrəmanlıq statusunun nəsildən-nəslə təkrarlanmasını və epik yaddaş daxilində yenidən aktuallaşmasını təmin edən struktur mexanizm kimi də meydana çıxır.

III. Nəticə. "Koblandı batır" dastanında qəhrəmanın inisiasiya modelinin araşdırılması göstərir ki, Koblandının "batır" statusu dastanın əvvəlindən hazır şəkildə verilən dəyişməz keyfiyyət kimi deyil, müxtəlif sınaq və keçidlər vasitəsilə formalaşan, təsdiqlənən və böhran məqamlarında yenidən qurulan epik status kimi təqdim olunur. Onun seçilmiş doğuluşu, uşaqlıqdan ayrılması, Estemisin rəhbərliyi ilə hazırlanması, ilk sınaqları, Kürtkanın qazanılması, Tayburılın seçilməsi və yetişdirilməsi, eldən ayrılması, Qazan xan üzərinə yürüşdən əvvəl ana döşünə qayıdışı, əsirlik və azadlıq mərhələləri eyni xətt üzrə təkrarlanan hadisələr deyil, qəhrəmanlıq statusunun müxtəlif səviyyələrdə dəyişməsini və təsdiqini təmin edən struktur-semantik mərhələlərdir.

Bu baxımdan dastandakı inisiasiya məzmununu konkret ritualın epik təzahürü kimi qəbul etmək düzgün deyildir. Burada inisiasiya daha çox epik təhkiyə qəhrəmanın status keçidlərini təşkil edən struktur model kimi çıxış edir. Uşaqlıqdan ayrılma, ana mühitindən uzaqlaşma, yeni fəaliyyət sahəsinə daxil olma, sınaq, evlənmə, qəhrəmanlıq atributlarının qazanılması, böhran və yenidən status qazanma kimi keçidlər müxtəlif metaforalar və semantik işarələr vasitəsilə ifadə olunur. Deməli, dastanda ritualın özündən daha çox, inisiasiya məntiqinin epikləşdirilməsi müşahidə edilir.

Koblandının əsirliyi bu modelin xüsusilə mühüm mərhələsidir. Əsirlik qəhrəmanın adının, kimliyinin yox olması deyil, onun qəhrəmanlıq funksiyasının müvəqqəti dayandırılması, "simvolik ölümü" kimi təqdim olunur. Silahların, zirehin və Tayburılın əlindən alınması qəhrəmanın döyüş və hərəkət imkanlarının məhdudlaşdırılması ilə yanaşı, onun əvvəlki semantik-funksional bütövlüyünün də pozulmasını göstərir. Karlığanın müdaxiləsi, Tayburılın səsi, silahların geri qaytarılması və qəhrəmanın yenidən döyüşə daxil olması isə həmin funksiyanın bərpasını təmin edir. Bu səbəbdən əsirlik və azadlıq epizodları metaforik olaraq "ölüb-dirilmə", qəhrəmanlıq statusunun daha yüksək səviyyədə yenidən təsdiqlənməsi kimi anlaşılmalıdır.

Dastanın qəhrəmanlıq modeli yalnız Koblandının fərdi bioqrafiyası ilə məhdudlaşmır. Kürtka və Karlığanın funksiyaları göstərir ki, qəhrəmanın statusunun formalaşması və bərpası yalnız onun fərdi fəaliyyəti ilə baş vermir. Estemis hazırlıq mərhələsində, Kürtka qəhrəmanlıq fəaliyyətinin formalaşması və təminində, Karlığa isə böhran və yenidən status qazanma mərhələsində mühüm funksional rol daşıyır. Tayburıl isə qəhrəmanın döyüş və hərəkət imkanları ilə semantik-funksional bütövlük təşkil edən, sonrakı mərhələdə isə bu qəhrəmanlıq modelinin nəsil daxilində davamlılığını təmin edən epik komponent kimi çıxış edir.

Bökenbayın doğuluşu və atasının uşaqlıq bioqrafiyasını struktur baxımından təkrarlaması inisiasiya modelinin fərdi qəhrəmanlıq təcrübəsindən daha geniş məna daşıdığını göstərir. "Altı yaş – ilxı – Estemis – at – döyüş" ardıcıllığının yenidən meydana çıxması Koblandı üçün qurulan qəhrəmanlıq modelinin yeni nəsildə aktuallaşdırılmasıdır. Beləliklə, dastanın sonuna doğru inisiasiya fərdi qəhrəmanın "batır"a çevrilmə prosesindən çıxaraq qəhrəmanlıq yaddaşının reproduksiyasını təmin edən epik mexanizmə çevrilir. Kııkbayın doğuluşuna edilən işarə isə bu davamlılığın daha sonrakı nəslə doğru açıldığını göstərir.

Nəticə etibarilə, "Koblandı batır" dastanında müşahidə etdiyimiz inisiasiya modeli Koblandının hazır qəhrəman deyil, uşaqlıqladan ərgənliyə, ana mühitindən ata mühitinə keçidini xarakterizə edən fallik metaforalar vasitəsilə formalaşdığını göstərir. Süjet planında batırlığa gedən yol müəyyən hadisələr xətti kimi görünsə də, əslində, burada mühüm məqam ana mühitindən ayrılaraq ata mühitinə keçidi ifadə edən metaforalarda özünü göstərir. Koblandının uşaq yaşlarından evdən ayrılması, ana mühitindən kənarda Estemisin yanında qalması, at minməsi, ova çıxması, ox atması, qılınc oynatması və evlənməsi epik strukturda özünü göstərən kişiləmə, fallik aktın icrası və fallik gücə yiyələnmə metaforalarıdır. Dastanda həmin metaforalar qəhrəman bioqrafiyasının struktur modelini təşkil edən elementlər kimi düzümlənsə də, Tayburılın ortaya çıxması və hazırlanması, Bökenbay və Kııkbayın doğuluşu, eləcə də onlarla bağlı təsvirlər məsələyə ritualın epik süjetdə

təzühürü kimi deyil, inisiasiya semantikasının müxtəlif obrazlar və metaforik münasibətlər vasitəsilə genişlənməsi kimi yanaşmağı tələb edir. Bu baxımdan dastanda inisiasiya vahid ritualın süjet boyunca ardıcıl təsviri deyil, qəhrəmanın uşaqlıqdan ərgənliyə, ana mühitindən ata mühitinə, ilkin doğuluşdan epik doğuluşa keçidini müxtəlif motiv və metaforlar səviyyəsində kodlaşdıran çoxqatlı epik-semantik model kimi meydana çıxır.

ƏDƏBİYYAT

Axundov, A. (2005). Azərbaycan dastanları. Beş cilddə, 3-cü cild. Lider nəşriyyatı

Əlizadə, S. (2004). "Kitabi-Dədə Qorqud" dastanı. Öndər.

Bell, C. (1992). Ritual theory, ritual practice. Oxford University Press

Dundes, A. (2005). Afterword: Many manly traditions: A folkloristic maelstrom. In S. J. Bronner (Ed.), Manly traditions: The folk roots of American masculinities (pp. 351–363). Indiana University Press.

Foley, J. M. (1991). Immanent art: From structure to meaning in traditional oral epic. Indiana University Press.

Qarayev, S. (2022)Sosial-psixoloji komplekslərin folklorda proyeksiyası: metaforik düşüncə və simvolik məna. Bakı: Elm, 600 s.

Qaybalıyeva S. (2025). Türk xalqları folkloru. Koblandı Batır. Elm və təhsil.

Gennep, A. Van. (1960). The rites of passage. University of Chicago Press.

Quliyev, H. (2016). Müdrik qoca arxetipinin semantik strukturu və paradiqmaları. Elm və Təhsil.

Honko, L. (2000). Thick corpus and organic variation: An introduction. In L. Honko (Ed.), Thick corpus, organic variation and textuality in oral tradition (pp. 3–28). Finnish Literature Society

Raglan, F. R. S. (1936). The hero: A study in tradition, myth and drama. Methuen & Co.

Rank, O. (1914). The myth of the birth of the hero: A psychological interpretation of mythology (F. Robbins & S. E. Jelliffe, Trans.). The Journal of Nervous and Mental Disease Publishing Company.

Təhmasib, M. (2005). Azərbaycan dastanları. Beş cilddə. IV cild, Lider nəşriyyat.

Turner, V. W. (1969). The ritual process: Structure and anti-structure. Aldine Publishing Company.